AZERBAIJAN INTERNATIONAL

**Pul Problemi**
**Niyə Görə Azərbaycan Gəncləri Elmdən Uzaq Gəzir?**
**Fərid Ələkbərov**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 11.4 (Qış 2003)
**© 2004. Azerbaijan İnternational**
**AZERİ.org**

Elm kimə lazımdır? Kiçik ölkələrin öz xalqlarının inkişafına təminat verən yüksək ixtisaslı mütəxəssislərə ehtiyacı varmı? Fərid Ələkbərovun fikrincə, Azərbaycanda elm böhran keçirir və əgər bir sıra ciddi islahatlar həyata keçirilməzsə, gəncləri öz həyatlarını elmi araşdırmalara həsr etməyə cəlb etmək o qədər də asan olmayacaq.

Sovet dövründə Azərbaycanda elmin inkişafı yüksək səviyyəyə çatmışdı. Yeddi milyonluq əhalisi olan kiçik respublikamızda universiteti bitirib magistr və doktor dərəcəsini almış minlərlə tələbədən ibarət nəhəng Elmlər Akademiyası var idi. Bəziləri daha da irəliyə gedərək professor və akademik təyin edilmişdilər. Yüzlərlə elmi araşdırma institutları, elm təhsil mərkəzləri və universitetlər Bakıda, paytaxtda cəmləşsə də, Gəncə (Sovet dövründə Gəncə Kirovabad adlanırdı), Sumqayıt və digər şəhərlərdə də bir sıra mərkəzlər yerləşirdi.

Bütün bunlara baxmayaraq, Sovet sisteminin bir sıra ciddi çatışmazlıqları var idi. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra başlanan keçid dövrünün problemləri bu çatışmazlıqları daha da mürəkkəbləşdirmişdir. Köhnə sistem artıq işləmir. Yenisi isə hələ də yaradılmayıb. Məhz buna görə elmi araşdırmalara maraq göstərən gənclərin sayı belə azdır. Bu meyl xüsusilə də gənc oğlanlarda nəzərə çarpır. Onlar elmlə bağlı peşələri seçmirlər. Və bunun da bir çox səbəbləri var.

Əmək haqqının aşağı olması

Gənclərin elmlə bağlı peşələri seçməsi yolunda ən ilkin maneə əmək haqlarının çox aşağı olmasıdır. Bir insan aylıq 20-25 dollar məbləğində əmək haqqı ilə sadəcə yaşaya bilməz. Bu sadəcə sağ qalmaq üçün belə kifayət deyil. Hələ mən normal həyat standartlarına uyğun şəkildə yaşamaqdan söhbət açmıram. Mən sadəcə sağ qalmağı nəzərdə tuturam.

25 dollarla nə ala biləcəyinizi düşünün. Əgər hər gün işə avtobus ilə gedirsənizsə, onda bu sizə aylıq 10 dollara başa gələcək. Bundan əlavə, yaşadığınız yerin elektrik pulu və digər kommunal xərclərini nəzərə alın, bu isə ayda ən azı 15-20 dollar edir. Beləliklə, 25 dollar siz hələ ağzınıza bir tikə yemək qoymağa macal tapmamış yoxa çıxır.

Ən ucuz yeməkxanada şam etmək sizə gündə 1 dollara başa gələcək. Demək ən ucuz şamı yeməyi 30 dollar edəcək (səhər yeməyi və nahar bir yana qalsın). Evdə hazırlanan digər yeməklərə meyvə, süd məhsulları və ət kimi vacib, vitaminli qida məhsullarını da əlavə etsəz, onda adambaşı

xərclərinizə ayda 100 dollar da əlavə etməli olacaqsınız. Kasıb adamlar adətən 1 kiloqramı 20 sentə başa gələn böyük kartof kisələri alırlar. Lakin belə qidalanma çox vaxt vitamin çatışmazlığına və sonda ümuni zəifliyə səbəb olur.

Qəzetlərin qiymətinə nəzər yetirək. Ən ucuz bir qəzeti almaq ayda bir adama 8 dollara başa gəlir. Təbii olaraq, artıq kitab və geyim almaq barədə düşünməyə yer qalmır. Həkimə getmək barədə isə heç danışmağa dəyməz. Ailəsi və uşaqları olan alim tezliklə çıxılmaz vəziyyətə düşür. Ailəsini saxlamaq üçün ona ayda ən azı 300-400 dollar lazımdır.

Cəmiyyətimizdə professor kimi rütbəyə malik  hər hansı alim rütbəsinə uyğun normal həyat şəraitinə və xarici görünüşə malik olmalıdır. Buna görə də elmlə bağlı peşə seçmək istəyən şəxslər rəsmi işlərindən başqa bir neçə əlavə işdə işləməlidirlər. Təəssüflər olsun ki, bəzi professorlar asan yol seçirlər və tələbələrdən yüksək qiymətlər üçün rüşvət almaqla vəziyyətdən çıxış yolu tapırlar. Bu hal xəcalət doğurur və ümumilikdə təhsil sistemini tənəzzülə uğratmaqla gənclərin gələcək uğurları üçün lazım gələcək bilik bazasına sarsıdıcı təsir göstərir. Bundan əlavə bu onlar üçün pis örnəyə çevrilir. Bu onları tənbəl edir və onlara həyatda hər bir problemin pulla həll edilə biləcəyi səhv düşüncə tərzini aşılayır. Bu aşağı əmək haqqı verən sistemin ən böyük çatışmazlıqlarından biridir.

Bəzi elm işçiləri universitetə hazırlaşan abituriyentlərə fərdi dərslər keçirlər. Lakin digər alimlər və müəllimlər də var ki, onlar imkanlı azərbaycanlıların, və ya xaricilərin evində fəhlə, sürücü, təmirçi, aşpaz və qulluqçu qadın kimi işləmək məcburiyyətində qalırlar. Nəticədə isə ömürlərini ciddi peşə sahəsinə həsr etmiş elm adamları sonda elmdən tamamilə uzaqlaşırlar.

Əgər bir insan özünü tamamilə və ürəkdən elmə həsr etmirsə, onda o elmin dalınca necə gedə bilər? Dükan sahibi olmaq məcburiyyətində qalan bir alimin gün ərzində fikrində olduğu yeganə şey hamburqer satışından nə qədər gəlir əldə edə biləcəyi və bu pulun ailəsini saxlamaq üçün yetərli olub-olmayacağıdırsa, onda o alim necə ciddi araşdırma apara bilər? Bu şərtlər daxilində yaşayan şəxs elm üzərində fikrini necə cəmləşdirə bilər? Alimin bu elm üzərində işləmək üçün nə zamanı, nə mənəvi enerjisi, nə də ilhamı yoxdursa, onda biz o “elmdən” hansı ciddi yeniliklər gözləyə bilərik? Biz elmi institutlara öz qəpik-quruşdan ibarət olan maaşını almaq üçün yalnız həftədə cəmi bir dəfə gələn işçidən nə gözləyə bilərik?

Sovet alimi

Gəlin bu günün vəziyyətini  keçmişdəki ilə müqayisə edək. Sovet İttifaqında ən çox maaş alan zümrə akademiklər, professorlar, və doktorluq dərəcəsini almış alimlər idi. Onların maaşı hətta kommunist partiyasının liderlərinin maaşlarından da yüksək idi. Məsələn, universitetdə kafedra müdiri və Azərbaycan Kommunist Partiyasının Katibi təxminən eyni məbləğdə— ayda 250-300 rubl maaş alırdılar. Akademiklər isə (ən yüksək dərəcəli alimlər) 600-700 rubl əmək haqqı alırdılar. O dövrdə 1 rubl 1 dollara bərabər idi.

Bu rəqəmi Qərbdə yaşayan insanların əmək haqqı ilə müqayisə etdikdə görürük ki, onlar öz əmək haqlarının böyük hissəsini kommunal xərclərə—su, işıq, gaz, ev kirayəsi və sağlamlıq xidməti üçün ödəməli olurlar. Sovet aliminin aldığı 300-400 rubl əslində alıcı qüvvəsinə malik olmaqla Qərbdə alimin aldığı 3000-4000 dollara yaxın bir məbləğ idi və demək olar ki, eyni həyat səviyyəsini təmin edirdi. Məktəblər, kitabxanalar və universitetlər tamamilə pulsuz idi.

Sovet aliminin əmək haqqı bütün istehlak məhsullarına—ərzaq, geyim əşyaları, kitablar və səyahətə kifayət edirdi. Bir kiloqram ət 1,5-2 rubl, 1 kiloqram meyvə isə 0,2-2 rubla bərabər idi. Yaxşı bir kostyum və ya bir cüt ayaqqabını 20-50 rubla almaq mümkün idi.

Hər hansı bir kafedə səhər yeməyi 0.5-2 rubla başa gəlirdi. Əla elmi kitablar çox ucuz—0,1 rubldan başlayaraq 2-3 rubla qədər idi. Beləliklə 1-2 rubla istənilən sahəyə aid 5-10 ədəd çox maraqlı kitab almaq olardı. Qəzetlərin qiyməti 0,01-0,2 rubl arasnda idi. Bir çox adamlar gündə 5-7 müxtəlif qəzet almağa üstünlük verirdi.

Avtobusda gediş haqqı 0,05-0,10 rubl arasında idi. Bakıdan Moskvaya təyyarə ilə gediş-gəliş bileti 20 rubl idi. 80 rubla (80-100 dollar arası) Moskvaya təyyarə ilə uçub, orada 3-5 gün çox yaxşı bir oteldə qalmaq, muzeyləri və kitabxanaları gəzmək olardı. İndi isə eyni səyahət xərcləri 500 dollara yaxındır. Yalnız təyyarə xərci 200 dollardır və hətta iri müasir şəhərlərdə orta səviyyəli oteldə qalmaq və yemək çox bahadır.

Beləliklə, bu gün 40-60 dollar əmək haqqı alan, doktorluq dərəcəsinə malik bir alimin Moskvaya, Parisə, və ya Londona səyahət etməsi qeyri-mümkündür. Belə əmək haqqı alan adam Azərbaycanın öz daxilində yerləşən digər şəhərlərə belə səyahət edə bilmir.

Keçid dövrünün çətinlikləri üzündən nə Azərbaycan, nə də ki keçmiş Sovet İttifaqının digər dövlətləri elmə ən minimum səviyyədə belə maliyyə yatıra bilməmişlər. İndi bir çox gənc alimlər yoxsulluq həddindən də aşağı səviyyədə yaşayırlar. İndi hətta küçədə dondurma və ya siqaret satanlar və ya avtobus sürücüləri cavan elmi işçidən 6-8 dəfə çox pul qazanırlar.

İndi normal zamanlar deyil. Alimlər məlumatı araşdırıb onu analiz edən və bununla da cəmiyyətin normal inkişafına təkan verən insanlardır. Bəzən ziyalıları "millətin beyni" adlandırılırlar. Adi insan beyinsiz yaşaya bilmədiyi kimi, bir millətin də alimsiz yaşaması mümkündürmü? Beynin normal inkişaf etməsi üçün qidaya ehtiyacı var. Əgər beyinə gedən qanın miqdarı azalarsa, onda insanda arteriya sklerozu yaranar və zaman keçdikcə insanın yaddaşı bundan əziyyət çəkərək korlanmağa başlayar. İntellektual qabiliyyət isə kəskin şəkildə tənəzzül edər. Keçid dövrünün çətinlikləri Azərbaycan elmində arteriya sklerozu yaratmışdır. Əgər indi mühüm tədbirlər həyata keçirilməzsə, onda arteriya sklerozu Alsaymer xəstəliyinə çevrilər, bu isə bütün xalqın korlanmasına və son nəticədə məhvinə səbəb ola bilər.

Kişilər yox, qadınlar

Əgər siz Azərbaycandakı elmi institutlara baş çəksəniz, onda sizə belə gələ bilər ki, siz rahibələrin yaşadığı bir monastra düşmüsünüz. Binaya daxil olsaz, siz əsasən qadınları görəcəksiniz. Orada çox az sayda kişiyə rast gəlmək olar. Bir sıra elmi araşdırma mərkəzlərində isə ümumiyyətlə kişi cinsinin cavan nümayəndəsini tapmaq qeyri-mümkündür. Hər yerdə qadınlar, qadınlar və yalnız qadınlar. Bu o deməkdir ki, qadınlar elmi kişilərdən daha çox sevir? Əlbəttə yox! Sadəcə olaraq alimlərə verilən əmək haqqı o qədər aşağıdır ki, ailə məsuliyyəti daşıyan evli kişilər orada işləmək barədə belə düşünmürlər.

Azərbaycan adət-ənənələrinə görə, qadınlar pul qazanmaq məcburiyyətində deyillər. Onlar ya valideynlərindən, ya da ki, həyat yoldaşlarından asılı olurlar. Bu normal hal hesab olunur. Bəzi valideynlər öz qızlarını elmi araşdırma mərkəzlərinə göndərməkdə xüsusilə maraqlıdırlar, çünki onlara görə evdə oturmaq darıxdırıcı olduğundan belə iş yerləri imtiyazlı xanımlar üçün istirahət

etmək, əylənmək və çox az iş görməklə keçinmək imkanı verən bir pansiondur. Buna görə də bu elmi mərkəzlərdə işləyən qadınlar üçün əmək haqqı bizim düşüncəmizə görə əsas həlledici faktor deyil. Hazırda isə boşanma hallarının sayı artdıqca, qadınlar uşaqlarını böyüdə bilmək üçün əmək haqqının miqdarına daha çox önəm verməyə başlamışlar.

Bizim adət-ənənlərə görə kişilər ailəni pul ilə təmin etməlidirlər. Təəssüf ki, Elmlər Akademiyası pul qazanmaq üçün heç də yaxşı yer deyil. Bütün bunlara baxmayaraq, hələ də akademik karyera əldə etməyi arzu edən bəzi cavan oğlanlar vardır. Onlardan bəziləri Akademiyada yarım ştat vəzifələrdə çalışırlar. Mən öz doktorluq dissertasiyasını yaza-yaza, restoranda ofisiant kimi çalışan bir cavan oğlan tanıyıram. Bunun Qərbdə normal hal kimi qəbul olunmasına baxmayaraq, Azərbaycan üçün bu qeyri-adi haldır. Bu gənc ailəsini təmin etmək üçün bu işdə çalışır. Gənc alimlərimizin bəziləri çox çalışqan və ağıllıdırlar. Onlar həqiqətən elmi sevirlər və bu sahədə karyeralarını davam etdirmək üçün öz həyatlarını qurban verməyə hazırdırlar.

Kompüter və İnternet

Əksər gənclər kompüter sahəsində kifayət qədər biliyə malikdirlər. Onlar xarici dil və İnternetdən istifadə etməyi bacarırlar. Onların biliklərindən istifadə edərək xarici elm mərkəzələri ilə beynəlxalq əlaqələr qurmaq və yeni kompüter texnologiyalarından istifadə etmək mümkün ola bilərdi. Bu istiqamətdə bəzi araşdırmalar aparılır. Lakin bütün bunlara baxmayaraq, Akademiyanın texniki avadanlığı, maliyyə vəsaitinin çatışmazlığı və nə kompüter, nə İnternet, nə də ki, xarici dil bilməyən Sovet düşüncəli, zamanın tələbindən geri qalan psixologiyaya malik alimlər bu böyük potensialdan yetərincə yararlanmağa imkan vermir.

Lakin əgər biz yaşlı nəslin təcrübəsini cavan nəslin kompüter və dil bacarıqları ilə birləşdirsək, onda elmimizdə inqilab edə və onu dünya səviyyəsinə qaldıra bilərik. Əlbəttə ki, araşdırma institutlarının bəzi rəhbərləri gənclərimizin nə qədər istedadlı olduğunu bilirlər. Buna baxmayaraq, sovet təhsili almış bir sıra rəhbərlər eqoist və qısqancdırlar və bizim gənclərimizə inkişaf etməyə imkan vermirlər. Əslində onlar gənclərin fəaliyyətinə maneələr yaradırlar. Lakin gec və ya tez onlar anlayacaqlar ki, yalnız Azərbaycan müstəqillik qazandıqdan sonra (1991) böyüyən və müasir texnologiyaları bilən yeni nəsil bizim beynəlxalq elm mühitinə inteqrasiya etməyimizə yardım edə bilər. Yalnız bu gənclər Azərbaycanda elmin yenidən təşkil olunmasına nail ola bilərlər. Yaşlı nəsil geri çəkilməli və gənclərə imkan verməlidir. Birgə fəaliyyət göstəməklə biz elmin inkişafına nail ola bilərik.

Bütün bunlar Sovet sistemindən qalma mirasdır. Bu sistem hər kəsi, o cümlədən alimləri "bərabərlik" və işlə təmin etməyə cəhd göstərirdi. Sovet rəhbərləri pis işləsə və hətta heç işləməsə belə elmi işçiləri işdən azad etmirdi. Əsas məqsəd universitetdən məzun olmuş hər bir kəsi işlə təmin etmək idi. Sovet İttifaqı həmişə göstərməyə çalışırdı ki, sovet dövlətləri yeganə dövlətlərdir ki, orada işsizlik problemi və yoxsul yaşayan bir insan belə yoxdur.

Sovet dövründə tənbəl və ya ambisiyalı olmasından, işləyib və ya tamamilə işləməməsindən asılı olmayaraq hər kəs eyni miqdarda əmək haqqı alırdı. Bütün elmi institutlarda işlər az sayda fərdlərin böyük həvəsi və hərəkətverici qüvvəsi hesabına həyata keçirilirdi. Buna görə də əgər hər hansı bir institutda 250 işçi olsaydı, əminliklə demək olar ki, onlardan yalnız 20-30-u ciddi işlə məşğul idi, 30-40 nəfəri qənaətbəxş işləyir, 180-200 işçi isə çox pis işləyir və ya tamamilə işləmirdilər. Nəhəng büdcəyə və Sibir, Mərkəzi Asiya və Qafqazdakı təbii ehtiyatlardan gələn gəlirə malik Sovet İttifaqı ən azından müəyyən bir zaman kəsiyi üçün bu tənbəl insan kütləsini pulla təmin edə bilirdi. Lakin indi

Azərbaycan artıq pula malik olmayan və ölkənin normal inkişafını təhlükə altına almadan lazımsız işçilərə əlavə əmək haqqı vermək iqtidarında olmayan kiçik bir ölkədir.

İslahatlara ehtiyac

Türkiyənin Ceyhan portuna çəkilən neft kəmərinin başa catdırılmasından sonra, Azərbaycan neft layihələrindən çoxlu gəlir əldə edəcəkdir. 2005-ci ildən başlayaraq, neft kəmərlər vasitəsilə Qərb bazarlarına axmağa başlayacaqdır. Bu yəqin ki, dövlət işçilərinin, o cümlədən elmi işçilərin əmək haqlarının artırılmasına səbəb olacaq. Bir çox elm işçilərinin maaşlarının miqyaslı şəkildə qalxması gözlənilir. Bütün bunlara baxmayaraq, hətta yüksək əmək haqqı Azərbaycan elminin bü gün üzləşdiyi problemləri həll etməyəcək. Strukturunu yenidən qurmadan Akademiyanı sadəcə maliyyələşdirmək onun effektlivliyinin artmasına səbəb olmayacaq.

Həm SSRİ-də, həm də Sovet Azərbaycanında nəzəri elmin səviyyəsinin kifayət qədər yüksək olmasına baxmayaraq, bu ideylar son nəticədə qazanc gətirə biləcək praktiki sahələrdə çox nadir hallarda tətbiq edilirdi. Bu ideyalar və kəşflər yalnız kağız üzərində qalan nəzəriyyələrə çevrilir və heç bir zaman praktikada tətbiq olunmurdu. Bəzi hallarda, bu ideyalar hətta xarici texniki şirkətlər tərəfindən pulla alınırdı. Hər kəsin bildiyi kimi, Sovet İttifaqında iqtisadiyyatın yeganə intensiv inkişaf etmiş sahəsi  hərbi sənaye idi.

Təəsüf ki, Sovet İttifaqının dağılmasından sonrakı onillikdə Sovet Akademiya sistemi demək olar ki, dəyişməz qalmışdır. Bu yenə də çoxlu sayda lazımsız institutları, mərkəzləri, və arabanın beşinci təkəri kimi faydasız və bitib-tükənməz "tədqiqatçıları" ilə ağır, cansıxıcı bürokratiyaya malik bir elmi mərkəzdir. Əgər hökumət bu sistemi maliyyələşdirilməsini 10 və ya 20 dəfə artırsa belə, yenə də bu system normal fəaliyyət göstərməyəcək.

Hansı tədbirlər görülməlidir?

1. Hər şeydən öncə, Akademiyanın strukturunu yenidən qurmaq lazımdır. Bu zaman bazar iqtisadiyyatı strukturu ilə fəaliyyət göstərən inkişaf etmiş dövlətlərin təcrübəsindən istifadə etmək lazımdır ki, tədqiqatlar daha çox davamlı olsun.

2. Artıq lazımsız olan institutlar bağlanmalıdır. Hal-hazırda bizim keçmişdən miras qalma saysız-hesabsız belə institutlarımız var. Lakin zaman dəyişdiyindən, indi həmin institutlar yararsızdır. Dövlətin bu mərkəzlərdən əsaslı bir xeyir əldə etəməsinə baxmayaraq, o bu mərkəzlərin saxlanılması üçün çox böyük miqdarda pul xərcləyir. Bu institutların bir çoxu ya bağlanmalı, ya da ki, əsas iş i görmək qabiliyyətinə malik şöbələrə çevrilməlidir.

   Bu institutların bir çoxu həddindən artıq böyükdür və yüzlərlə işçisi vardır. Bu Sovet İttifaqından qalma meqolomaniyadır. O zaman hər şey çox böyük miqyasda həyata keçirilirdi. Qərbdə 30-60 elmi işçisi olan elmi institut kifayət qədər böyük sayılır. Lakin Azərbaycanda hətta 500 işçisi olan institutlar var ki, orada çalışanların hamısına əmək haqqı verilir, baxmayaraq ki, onların əksəriyyəti heç nə etmir.

3. Tədricən lazımsız vəzifələrdə olan və yetərincə  fəaliyyət göstərməyən işçiləri işdən azad etmək lazımdır. Onda dövlət məhsuldar alimlərin əmək haqlarını artıra bilər. Görülən iş o zaman effektiv olar ki, hər institutda yalnız güclü prefesionallar işləsin. Bunu etmək üçün isə bu işçilərə onların işlərinin keyfiyyətinə uyğun əmək haqqı verilməlidir. Əgər belə

yenidənqurma işləri həyata keçirmək mümkün olsa, onda dövlət büdcəsindən əlavə maliyyə almadan alimlərin əmək haqlarını 3 dəfədən 6 dəfəyədək qaldırmaq olar.

4. Əmək haqlarını görülmüş işin dəyərinə görə müəyyənləşdirmək vacibdir. Elmi dövlət institutunda işləyən və dövlət büdcəsindən maliyyələşən hər bir tədqiqatçının əmək haqqı həmin tədqiqatçının təkcə rütbəsi və dərəcəsinə görə deyil, onun gördüyü işin həqiqi keyfiyyətinə və onun həqiqi intellektual nailiyyətlərinə görə də müəyyənləşməlidir. Müqavilə əsasında işləmək mümkün variantlardan biri ola bilər. Hər bir tədqiqat layihəsinin öz şərtləri, zaman müddəti və ödənilmə qaydaları olmalıdır. İşin ən çətin və mühün aspektini həyata keçirən şəxslər təbii olaraq daha çox maaş almalıdırlar.

5. Universitetlərdəki tədqiqat işlərini aktivləşdirmək lazımdır. Dünyanın istənilən ölkəsində, əksər tədqiqatçılar həm elm öyrədir, həm də tədqiqat işləri ilə məşğul olurlar. Bu tədqiqatçılara onların ən son elmi nailiyyətlərini tələbələrlə—yeni nəsil alimləri ilə bölüşmək imkanı verir. Nəticədə isə universitetlərdə təhsil səviyyəsi yüksəlir və daha da dinamik olur. Bundan əlavə, əmək haqlarının nisbətən yüksək olduğu özəl universitetlərdə tədqiqatçılar iqtisadi cəhətdən daha sərbəst olurlar.

6. Elm, bazar və intellektual istehsalın istehlakçıları arasında sıx əlaqələr yaratmaq. Alimlər öz intellektual mülkiyyətini (kitab, kəşflər, texniki təkliflər) satmaq və bundan əsaslı gəlir əldə etmək hüququna malik olmalıdırlar.

7. Neft, kimya, və ərzaq sənayesi sahəsində fəaliyyət göstərən mühüm beynəlxalq şirkətlər bizim tədqiqatçıların araşdırmalarından, xüsusilə də təbiət elmləri sahəsində araşdırma aparan alimlərin işlərindən faydalana bilərlər.Onlar özlərinin xüsusilə maraqlı olduqları sahələrə investisiyalar qoymağa yardım edə bilərlər. Dövlət isə bu əlaqələri inkişaf etdirməlidir.

8. Həm dövlət, həm də ki, şəxsi biznes elmin müxtəlif sahələrində müsabiqələri və təqaüdləri maliyyələşdirməlidir.

9. Bizim elm dünya elmi ilə əlaqələnməli və inteqrasiya etməlidir. Biz beynəlxalq tədqiqatlarda, təqaüd, mükafat proqramlarında və simpoziumlarda aktiv şəkildə iştirak etməliyik. Bütün bu proqramlar dünyanın hər yerində tədqiqatın müxtəlif sahələrini böyük məbləğdə pul ilə təmin edir. Bu il Azərbaycan nəhayət ki, İNTAS'a—Avropa Komissiyası, Avropa İttifaqının üzv dövlətləri və digər bu ideyalara malik ölkələr tərəfindən yaradılan və Şərq-Qərb elmi əməkdaşlığı vasitəsilə Yeni Müstəqillik Qazanmış ölkələrdə və digər tərəfdaş ölkələrdə dəyərli elmi potensialın qorunması və inkişaf etdirilməsi yolunda fəaliiyət göstərən müstəqil beynəlxalq assosasiyaya qoşulmuşdur. Bu çox yaxşı başlanğıcdır, lakin bu yöndə hələ çox işlər görülməlidir.

10. Dövlət və özəl şirkətlər bizim mütəxəssislərimizin beynəlxalq elmi görüşlərdə iştirakına yardım etməlidir. Hal-hazırda maliyyə problemləri üzündən onların həmin görüşlərdə iştirakı demək olar ki, mümkün deyil. Buna görə mütəxəssislərimiz dünyadan izolə olunublar və onların əməkdaşlarının digər ölklərdə gördüyü işlərdən xəbərsizdilər. Eyni zamanda beynəlxalq ictimaiyyət bizim çox önəmli ixtiralarımızdan bixəbərdir və bizim güclü alimlər ilə əməkdaşlıq edə bilmirlər.

11. Yeni texnologiyalar və araşdırma metodları köhnə Sovet sistemindən qalma vasitələri əvəzləməlidir. Biz avadanlıqlarımızı, xüsusilə də kompüter texnologiyası və İnternetlə bağlı olan avadanlıqları yeniləri ilə əvəzləməliyik. Biz kompüter lərin bizim işimizi necə inkişaf etdirə bilməsini öyrənməliyik. Biz eyni zamanda xarici dil bacarıqlarımızı inkişaf etditməliyik ki, dünya səviyyəsində iştirak edə bilək.

Azərbaycan iqtisadiyyatında və mədəniyyətində baş verən böyük dəyişikliklər əsrində yaşayır. Zaman dəyişmişdir və bizim yeganə yolumuz ya zamanın tələbinə uyğun dəyişmək, ya da ki, arxada qalmaqdır. Azərbaycanın ən böyük nailiyyəti onun müstəqilliyi və bu müstəqillik əsrində böyümüş istedadlı və alicənab gənclərdir. Mən ümid edirəm ki, bizim gənclər Azərbaycanı sosialist düşərgəsinin hər hansı bir əyalətindən çiçəklənmiş, dinamik, inkişaf etmiş bir ölkəyə çevirməklə nəinki xalqımızın həyat şəraitini yaxşılaşdıracaq, eyni zamanda dünya ictimaiyyətinə də fayda gətirəcəkdir.

Fərid Ələkbərov (1964-də anadan olub) Bakıda Əlyazmalar İnstitutunda İnformasiyalar və Tərcümə Şöbəsinin Rəhbəri vəzifəsində çalışır. O, Tarix elmləri namizədi, Biologiya elmləri doktorudir. İxtisası Tibb Tarixidir. Bununla bağlı tədqiqatlarını orta əsr ərəb əlifbasında olan Azərbaycan əlyazmaları üzərində aparır. AZER.com səhifəsində “Farid Alakbarov” adı altında axtarış apara və Azerbaijan İnternational jurnalında nəşr olunan 30-a yaxın məqaləni oxuya bilərsiniz.

---

Veb direktor: Betti Bleyer
Tərcümə: Aytən Əliyeva
Yoxlayan: Aynurə Hüseynova
Redaktə edən və veb üçün hazırlayan: Ülviyyə Məmmədova